# Abadlığın, gözəlliyin ünvanı - Şəki



Qədim tarixə, əsrarəngiz gözəlliyə, özünəməxsus iqlimə malik Şəki - bütün fəsillərdə baxımlıdır, gözəldir. Bu diyara yaraşıq verən bir tərəfdən biri-digərini təkrarlamayan qədim tarixi abidələr, memarlıq nümunələridirsə, digər tərəfdən, bu gözəlliyi qoruyan, onu daha da artıran insanlardır. Haqqında söhbət açmaq istədiyimiz insanlar gecəli-gündüzlü əməkləri ilə Şəkinin abadlaşmasına, təmizliyinə yorulmadan xidmət göstərirlər.

Şəki Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi İntiqam Əşirov rəhbərlik etdiyi kollektivin ən ümdə vəzifəsinin şəhərin daim təmiz və səliqəli saxlanması olduğunu qeyd edərək bildirdi ki, hər il şəhərdə müxtəlif növ kommunal xidməti işləri yerinə yetirməklə büdcədən maliyyələşmə, ayrılıqda müxtəlif növ strukturlara (müəssisə-təşkilatlar, mülki əhali, kommersiya və s.) isə məişət tullantılarının daşınması kommunal xidmətlərini göstərərək, təsərrüfathesablı olmaqla fəaliyyət göstərir.

Yaşadığımız şəhərin gözəlliyinin, abadlığının, təmizliyinin və yaşıllaşdırılmasının təmin edilməsinə bu gün bu son illərdə aparılan mükəmməl təmizlik və yaşıllaşdırma işlərində öz təzahürünü daha dolğun əks etdirir.

Şəhərimiz ildən-ilə böyüyür, gözəlləşir. Bu, o deməkdir ki, Şəki Kommunal Təsərrüfatı İstehsalat Birliyinin şəhərdə yerinə yetirdiyi müxtəlif növ təmizlik və yaşıllaşdırma kommunal xidmətlərinin də həcmi artır.

Bu işlər dislokasiya əsasında şəhərin əsas magistral prospekt-küçələrinin əl və mexaniki üsulla süpürülməsi, su arxlarının təmizlənməsi, yolların su avtomaşınları ilə yuyulması, qış mövsümündə prospekt-küçələrin qar-buz örtüyündən təmizlənərək qum-duz-kəpək qarışığının səpilməsi, tullantıların yığılaraq zibil poliqonuna daşınması, zərərsizləşdirilməsi və yaşıllıq zolaqlarına qulluq edilməsindən ibarətdir.

Belə ki, ötən il ərzində iş planına və təsdiq olunmuş dislokasiyaya uyğun olaraq şəhərin ayrı- ayrı mərkəzi prospekt- küçələrində 291500 kvadratmetr sahələr əl ilə süpürülüb, 321850 kvadratmetr sahələr isə mexaniki üsulla süpürülüb, 50400 poqonmetr su arxları müxtəlif tullantılardan təmizlənib, həmçinin, küçə-prospektlərin qar-buz örtüyündən təmizlənməsi işləri yerinə yetirilib və 20 hektar yaşıllıq zolaqlarına qulluq edilib.

Bildiyimiz kimi, Birliyin bütün işləri şəhərdə, yəni eyni zamanda çöl şəraitində aparılır. Biz dövlətimizə, şəhərimizə və burada yaşayan əhalimizə daim xidmət göstəririk. Müəssisədə istirahət günü, demək olar ki, yoxdur, bu isə bizim yerinə yetirdiyimiz işlərin xüsusiyyətindən və xarakterindən irəli gəlir.



rada yaşayan hər bir vətəndaş xüsusi diqqət və qayğı ilə yanaşmalıdır.

Son 4 ildə Şəki şəhəri daha da böyümüş və təmir-abadlıq işləri sürətlə inkişaf etmişdir. Nəticədə, şəhərimizin siması müsbət mənada dəyişmiş və Şəki hazırda respublikamızın ən tanınmış turizm şəhərlərindən birinə çevrilmişdir. Aparılmış bu təqdirəlayiq işlərlə yanaşı, şəhərdə eyni zamanda müvafiq təmizlik və yaşıllaşdırma işləri onun füsunkar gözəlliyini daha da artırmışdır.

Bütün bunlar şəhərimizə gələn turist axını və dövlət səviyyəli tədbirlərin sayını da ildən-ilə artırır.

Məhz aparılmış bütün bu təmir-abadlıq işləri şəhərdə

Göstərdiyimiz xidmətlərin ahənginin pozulmaması üçün müəssisədə xüsusi qrafik tərtib edilmişdir. Belə ki, həmin qrafik əsasında bütün işçilər istirahət günləri ilə təmin edilirlər.

İşçilərimiz hər ay vaxtlı-vaxtında olmaqla əmək haqları ilə təmin edilib və onların hər birinin sosial qayğıları həll olunmuşdur.

Bütün bunlar isə onları şəhərdə təmizliyin və yaşıllığın təmin edilməsində öz peşə borclarını var qüvvələri ilə tam ortaya qoymağa sövq edir.

Şəhərdə təmizliyin təmin olunması və əhalinin məqsədli istifadələri üçün ayrı-ayrı məhəllələrə, bütün ictimai yaşayış binalarının həyətlərinə dəmir tullantı qutuları, konteynerləri qoyulmuş və yığılmış tullantılar tərəfimizdən müntəzəm olaraq daşınır. Bütün xidməti avtomaşınlarımız onlar üçün tərtib edilmiş marşurut-qrafik əsasında xidmət göstəriblər.

Ötən il ərzində yerinə yetirdiyimiz müxtəlif təmizlik işləri ilə yanaşı, eyni zamanda şəhər daxilindən keçən "Dəyirmanarx" və "Qurcana" çaylarının daxili hövzələri də tərəfimizdən vaxtaşırı olaraq müxtəlif tullantılardan təmizlənmişdir.

Birliyin balansında hazırda müxtəlif kommunal xidməti təyinatlı 39 ədəd maşın-texnikalar vardır.

Həmin maşın-texnikalardan 8 ədəd Qaz 53 markalı tullantıdaşıyan avtomaşınlardır. Bu avtomaşınlar 1978-1985-ci il buraxılışlı





maşınlar olub, artıq texniki istismar müddətlərini çoxdan başa vurmuşlar. Onlardan ikisi hazırda çıxdaş edilib, digər 6-sı isə tez-tez nasaz hala düşür, onların ehtiyatı tapılmır və tapılsa belə, çox bahadır. Bütün bunlar bizim istehsalatda müəyyən çətinliklər yaradır, ona görə də onlar əvəzində istismar səmərəliliyi nöqteyi-nəzərdən daha çox sayda yeniləri ilə əvəz olunmalıdır.

Mülki əhali və kommersiya strukturlarına məişət tullantılarının daşınması üzrə göstərdiyimiz xidmətlərdə hələ də müəyyən problemlər qalmaqdadır. Belə ki, bir qrup abonentlər xidməti müqavilə bağlamaqdan və aylıq xidmət haqqını ödəməkdən yayınırlar. Bu problemlərin həll olunmasında aidiyyəti üzrə məhəllə nümayəndələrinin köməyinə ehtiyacımız vardır. Lakin problemlərin həlli ilə bağlı Birliyin Abunə şöbəsi daima əhali və strukturlarla təbliğati maarifləndirmə işləri aparır və bu işlər tərəfimizdən gələcəkdə də davam etdiriləcəkdir.

Birlik tərəfindən şəhərin ayrı-ayrı ərazilərindəki bir qrup ağaclar aqrotexniki qaydada budanmış, şəhər ərazilərdəki ağaclar mövsümi qaydada kirəc məhlulu ilə ağardılmış, qurumuş, sınmış müəyyən bəzək ağacları yeniləri ilə əvəz olunmuş və yaşıllıq zolaqları müntəzəm qaydada olmaqla suvarılmışdır.

Yaşıllaşdırma üzrə qarşıda duran məsələlər isə gələcək illərdə şəhərdə yaşıllıq ərazilərinin sahələrini artırmaqdan ibarətdir.

Hazırda Birliyin şəhərdə yerinə yetirəcəyi və iş planına daxil edilən kommunal xidməti işlərindən biri də mövsümi xarakterli olub, qış mövsümündə havaların qarlı-şaxtalı keçdiyi günlərdə şəhərin ayrı-ayrı əsas magistral prospekt-küçələrinin qar-buz örtüyündən təmizlənməsi üçün qum-duz-kəpək qarışığının təmizlənməsidir.

İl ərzində yerinə yetirdiyimiz hər bir kommunal xidməti işinin öz xüsusiyyəti var, lakin, bunların içərisində payız-qış mövsümündə yerinə yetirdiyimiz kommunal xidmətlər xüsusi məsuliyyət tələb edir.

Ona görə də hər il yaz-yay mövsümündən başlayaraq Birlik qışa hazırlıqla bağlı tələb olunan müvafiq işləri yerinə yetirmişdir.

Bununla bağlı maşın-texnikalar cari təmirlər hesabına təmin edilmiş, həmçinin, mövsümdə onların təhlükəsiz hərəkətlərinin təmin olunması üçün zəncirlər də alınmış, mövsüm ərzində istifadə edilmişdir.

Bundan sonra da hava şəraitindən asılı olaraq daha əlavə tədbirlərin görülməsi də planlaşdırılıb.

Həmçinin, mövsüm ərzində, həm xidməti maşınların, həm də xidməti personalın növbəlilik qaydasında işləyəcəkləri planlaşdırılmışdır.

Ümumiyyətlə, Birlik 2015-ci il ərzində ayrılıqda bütün növ kommunal xidmət işlərini layiqincə yerinə yetirmişdir.

İlin iki ayı artıq arxada qalmışdır. Bu müddət ərzində də kollektivimizin bütün üzvləri əzmkarlıq nümayiş etdirmiş, təbiətin bütün şıltaqlıqlarına layiqincə sinə gərmişlər. Xüsusən yanvar ayının ikinci yarısında və fevral ayı ərzində bölgədə əvvəlki illərlə müqayisədə hava şəraitinin kəskin pisləşməsi bir sıra xoşagəlməz fəsadlar törətsə də, rayonun aidiyyəti qurumları ilə birlikdə baş verə biləcək ciddi çətinliklərlə bağlı qabaqlayıcı tədbirlər gördük.

Bir sözlə, ilin bütün fəsillərində doğma Şəkimizin gözəlliyini qoruyub saxlamaq, şəhərimizə gələn çoxsaylı turistlərin rahat istirahətinə şərait yaratmaq, həmçinin, vətəndaşlarımızın rahatlığını təmin etmək üçün kollektivimizin hər bir üzvü bundan sonra da öz səylərini əsirgəməyəcəkdir.

**İlham PƏNAHOV,**
**"Respublika".**